*Beynəlxalq Metafizika Mərkəzi*
*Metafizika jurnalı*
*2019, cild 2, say 1, sıra 5*

*DOI 10.33864/MTFZK.*
*ISSN 2616-6879 (Print)*
*ISSN 2617-751X (Online)*

УДК 930.85.
KBT 91.9:79
DOI 10.33864/MTFZK.2019.31

*Yeganə RƏSULOVA**
*(Azərbaycan)*

*AMEA, Fəlsəfə İnstitutu*

# Tarixi yaddaş mədəniyyətin təkamülü dinamikasında

***Xülasə***

*Məqalədə göstərilir ki, həyat tərzi kollektiv yaddaşın mənbəyidir. Düşüncə mədəniyyəti onun məzmun və dinamikasına təsir edir. Mədəniyyət isə tarixi yaddaşın daşıyıcısıdır. Bu müddəadan çıxış etsək, tarixi yaddaş fenomeninin kollektiv kommunikasiyanın nəticəsi kimi mədəniyyətlə sıx bağlı olduğu nəticəsini alarıq. Bizim analiz göstərir ki, müasir tarixi mərhələdə türk xalqları arasındakı münasibətlər daha da dərinləşməlidir. Bu tezisdən çıxış edərək belə bir qənaətə gəlmişik: mədəniyyət, tarix və dil sahələrinin uzlaşdırılması yaddaşın bərpası nəticəsində mümkündür. Burada biz, qədim dövrlərdən başlayaraq ilk növbədə türk xalqlarının ümumi və yeni yaranan personajlarının "canlandırılması"na baxırıq.*

*Birincisi, mədəniyyətin ilk növü kimi, şifahi mədəniyyətdə yaddaş xatırlama və nəql etmə vasitəsi ilə formalaşır. Yaddaşın bu növü daha sabit kontentə malikdir. Bu cür yaddaş daha statikdir.*

*İkincisi, yazılı mədəniyyətə çıxış tarixi yaddaşın faktiki rolunu sürətləndirdi. İnformasiya rəmzlər üzrə yayılmağa başladı və daha çox qalıcı oldu (əlifba). M.M.Makluyen yazır ki, bu proses insan xarakterinə təsir etdi. Bu prosesdə türk xalqlarının yeri haradadır?*

*Üçüncüsü, müasir elektron mədəniyyətdə (M.M.Makluyen mənasında) tarixi yaddaşın sosial funksiyası fərqli, yeni rol oynayır. Burada təkamülün dinamikası ilə dil ifadəsi arasında yeni təmas xətləri meydana gəlir. İnformasiyanın İnternet vasitəsi ilə yayılması yazılı yaddaş anlayışını arxa plana atır. Beləliklə, bizim başlıca hi-*

*AMEA, Fəlsəfə İnstitutunun dissertantı, 1 saylı Tibb Kolleci, rasulova76@gmail.com. https://orcid.org/0000-0003-0716-6081.

*potezamız: türk xalqlarının ümumi dilinin formalaşması və ortaq mədəniyyətin inkişaf etdirilməsi strateji əhəmiyyət daşıyır.*

***Açar sözlər:*** *Tarixi yaddaş, mədəniyyət, şifahi mədəniyyət, yazılı mədəniyyət, elektron mədəniyyət, təkamül, xalq*

## *Giriş*

Mədəniyyət insan mövcudluğunun təməl şərtidir. Tarix boyu fərdi və kollektiv səviyyədə varoluş insanın özünün yaratdıqları ilə sıx bağlıdır. Mədəniyyət də məhz insan övladının fəaliyyəti ilə birbaşa bağlıdır. Bir sıra alimlər mədəniyyəti, ümumiyyətlə, insan zəhmətinin məhsulu kimi tərif edirlər. Bu mənada mədəniyyət "insan izidir". Burada insan zəkasının vacib rol oynadığını anlamaq çətin deyil. Çünki insanın hər bir fəaliyyət növündə şüurla bədən birgə iştirak edirlər. Mədəniyyət bu mənada şüuri fəaliyyətin nəticəsidir. Obrazlı desək, mədəniyyət "fikirlə əlin ortaq çalışmasının məhsuludur". Şübhəsiz, burada yaddaşın mədəniyyətin formalaşmasında prinsipial rol oynadığı haqqında fikir söyləyə bilərik. Müasir elmi nəzəriyyələrdə bu tezisi təsdiqləyən fikirlər vardır. Məsələn, sinergetikada qeyri-xətti və açıq sistemlərin təkamülü "sistem yaddaşı" olmadan mümkün deyildir. O cümlədən, sosial-mədəni sistemlərdə yaddaş rolunu oynayan dəyişməz kodlar (bu keyfiyyətdə folklor nümunələri, bədii təfəkkür elementləri, sosial-psixoloji arxetiplər və digər dəyişməyən faktorlar – arxetiplər misal kimi göstərilə bilərlər) cəmiyyətin tarixi dinamikasında "təkamül mayakları" kimi qəbul oluna bilərlər. Sinergetik yanaşmaya görə, sistem yaddaşı əsasında seçim edə bilir. Ancaq burada bir özəlliyi vurğulamaq lazımdır.

Məsələ ondan ibarətdir ki, seçim anında sistem "irsi yaddaşı"nı "itirə" bilər. Yəni seçim anına qədər öz keçmiş tarixində rast gəlinməyən təkamül xəttinə çıxar. Lakin bu, yaddaşın yalnız bir aspektinə aiddir. Bütövlükdə sistem yaddaşını itirsə, onun seçimi xaosa apara bilər. Bu mənada sistem məhz yaddaşı, o cümlədən öncəki mərhələlərdə baş vermiş seçim anları haqqındakı yaddaşı əsasında növbəti təkamül variantına üstünlük verə bilir. Deməli, sinergetik yanaşma yaddaşın özünü mürəkkəb struktur-funksional özəlliyə malik hadisə kimi qəbul edir.

Söhbət sosial sistemlərdən (biz burada etnosu, xalqı, cəmiyyəti, milləti və digər insanın kollektiv birgəyaşayış formalarını nəzərdə tuturuq) gedirsə, bir sıra özəl qeydlərə ehtiyac vardır. Çünki insanların təşkil etdikləri istənilən kollektiv varlıq

*DOI 10.33864/MTFZK.*
*ISSN 2616-6879 (Print)*
*ISSN 2617-751X (Online)*

formalarında şüur adlanan fenomen aparıcı rol oynayır. Şüurlu fəaliyyət təbiət sistemləri üçün işlənən sinergetik anlayışlara metaforik məzmun çalarları verməyi tələb edir. Bu mənada tarixi yaddaş kontekstində "arxetiplər", "mədəniyyət", "mənəviyyat", "kollektiv və fərdi fəaliyyət", "sosial nizamlılıq", "sosial xaos" və s. kimi anlayışlardan istifadə etmək lazım gəlir. Bu anlayışların sinergetik məzmun çalarları, şübhəsiz ki, məcazi məna daşıyır. Ancaq onlar yaradıcılıq kontekstində müasir elmi mərhələ üçün kifayət qədər səmərəli ola bilərlər.

## *Tarixi yaddaş və kollektiv fəaliyyət*

Bu metodoloji qeydlər əsasında tarixi yaddaşın mədəniyyətin təkamülü bağlılığında öyrənilməsinin elmi əsasları olduğu qənaətinə gələ bilərik. Onu nəzərə almaq lazımdır ki, tarixi yaddaş kollektiv fəaliyyətin məhsulu kimi fərdlərarası ünsiyyət nəticəsində formalaşır. Lakin mahiyyətcə həm də digər sosial faktorlarla sıx bağlıdır. Bu səbəbdən hər bir etnosun tarixi təkamülündə yaddaş xüsusi rol oynayır. Bu kontekstdə deyə bilərik ki, tarixi yaddaş cəmiyyətin həyat tərzi, düşüncə mədəniyyəti və dillə bağlıdır. Həyat tərzi kollektiv yaddaşın qaynağıdır, düşüncə mədəniyyəti onun məzmunu və dinamikasına təsir edir, dil isə tarixi yaddaşın daşıyıcısıdır. Bu məqamlar tarixi yaddaş fenomenini kollektiv ünsiyyətin yekunu kimi mədəniyyətlə sıx bağlayır. Həmin məntiqi müstəvidə tarixi yaddaş sosial hadisədir. Burada fərdi təfəkkürlə cəmiyyətin sosial-mədəni mühiti arasında maraqlı qarşılıqlı əlaqəni görmək mümkündür. Yəni tarixi yaddaş cəmiyyətdə insanların fəaliyyəti zamanı formalaşır, lakin onun mövcudluq məkanı fərdi şüurdur. Yaddaş məhz bu anlamda tarixidir. Bunu nəzərə alaraq H.Hatton tarixi yaddaş məharəti adlandırır.[1]

Yuxarıdakı müddəalardan belə nəticə çıxara bilərik ki, yaddaş sosial-mədəni təkamülün dinamikasında mühüm rol oynamalıdır. Buradan maraqlı bir sula meydana çıxır – mədəniyyətin hər bir tarixi növü ilə tarixi yaddaş arasındakı əlaqələrin məzmunu necədir? Bizim əsas tezisimiz belədir – mədəniyyətin hər bir tarixi növünə uyğun olan tarixi yaddaş növü mövcuddur! Fəlsəfi kontekstdə bu məsələ mürəkkəb struktura malikdir. Çünki bir tərəfdən fərdi səviyyədə şüurlarda yaddaşın saxlanması

[1] Hatton P. H., *History as an Art of memory*. University Press of New England/ Hanover and London, 1993, 226 pp.

mexanizmləri, digər tərəfdən isə tarixi yaddaşın kollektiv şüurda real mövcudluğu arasında mürəkkəb əlaqələr vardır. Eyni zamanda, məhz bu mürəkkəb struktur-funksional özəlliklər vasitəsi ilə tarixi yaddaş konkret mədəniyyət növü ilə qarşılıqlı əlaqədə olur. Deməli, yuxarıda vurğuladığımız mürəkkəbliyə tarixi yaddaşın sistem olaraq mədəniyyət sistemi ilə qarşılıqlı münasibətləri də əlavə olunmalıdır. Etiraf edək ki, bu, kifayət qədər mürəkkəb prosesdir. Lakin vəziyyəti sadələşdirən bir neçə məqam vardır.

Birincisi, tarixi yaddaşın fərdi və kollektiv səviyyəsi birbaşa mədəniyyətin uyğun səviyyələri ilə bağlıdır. Fərdi mədəniyyətdə fərdi yaddaşın rolu böyükdür. İnsanın kollektiv mühitdə fəaliyyətində yaddaş istiqamətverici rol oynayır. Fərdin müxtəlif ünsiyyət vasitələri və irsi keçmə sayəsində özü haqqında təsəvvürü formalaşır. Onun digər insanlarla ünsiyyəti və dünya haqqında bilikləri bu təsəvvürlər əsasında formalaşır. O cümlədən, fərdin sosiallaşmasında həmin məqam ciddi rol oynayır. Deməli, faktiki olaraq fərdin sosial-mədəni mühitdə özünü təsdiqində onun yaddaşı böyük rol oynayır. Misal üçün Rusiyada aparılmış bir sosioloji tədqiqatın nəticələrini göstərə bilərik. Həmin tədqiqatda Moskvada miqrantların sosial mühitə adaptasiyasında yaddaşın rolu məsələsi də araşdırılmışdı. Alınan nəticələr göstərib ki, insan öz tarixi keçmişini nə qədər yaxşı bilirsə, bir o qədər yeni mühit tez adaptasiya olunur. Yəni onun yaşamaq qabiliyyəti yüksək olur. Öz keçmişini bilmək geniş fərdi və kollektiv yaddaşa malik olmaq deməkdir. Deməli, yaddaş insanın sosial aktivliyinə birbaşa təsir edir, o, aydın yaddaşa sahib olanda daha çevik yeniləşmə qabiliyyətinə malik olur. Burada yaddaşın sosial mühit kontekstində oynadığı mühüm rol insanın tarixi yaddaşda daha çox pozitiv məqamları saxlaması ilə izah oluna bilər.

### *Tarixi yaddaşın sosial konteksti*

Bu müddəalardan tarixi yaddaşın sosial konteksti ilə bağlı təsəvvürlər əldə edə bilərik. Çünki yaddaş fərdin şüurunda real mövcud olsa da, o yalnız sosial kontekstlə müqayisədə konkret tarixi məzmun kəsb edə bilər. Fərdi şüurun sosial aspektdə "informasiya qidalanması" da cəmiyyətdən qaynaqlanır. Yalnız o hadisələr yaddaşa çevrilir ki, kollektivin şüuri və mənəvi süzgəcindən keçib, fərd üçün məna kəsb edir. Hər hansı olay sosial səviyyədə qiymət almasa, fərd üçün tarixi yaddaş elementinə çevrilə bilməz. Burada bir özəlliyi də nəzərə almaq gərəkdir. Heç də həmişə burada

*DOI 10.33864/MTFZK.*
*ISSN 2616-6879 (Print)*
*ISSN 2617-751X (Online)*

söhbət bütövlükdə cəmiyyətdən getmir. Qrup və ya hər hansı birgə yaşayış forması üçün də tarixi yaddaş ola bilər. Bizim üçün də əsas olanı tarixi yaddaşı kollektiv reallıq müstəvisində tədqiq etməkdir. Ancaq burada başlıca prinsipimiz bütövlükdə cəmiyyəti, etnosu və milləti əhatə edən tarixi yaddaşın sosial-mədəni əhəmiyyəti və roludur. O cümlədən, türk etnosunun tarixi yaddaş aspektində inkişaf hədəflərinə çatmaq potensialını araşdırmaqdır.

Beləliklə, insan yaddaşının fərdi və kollektiv səviyyədə həyat tərzi üçün ciddi əhəmiyyətə malik olduğunu təsdiqləyən elmi faktlar vardır. Fəlsəfi-elmi ədəbiyyatda bu iki səviyyənin qarşılıqlı əlaqəsini ifadə edən və onlar arasındakı nisbəti göstərən ideyalara rast gəlinir. Məsələn, professor V.K.Yeqorov həmin bağlılıqda yazır: "Biz subyektivik və öz subyektivliyimizdə azadıq, lakin mədəniyyətin, dəyərlər dünyasının, xalqın mentalitetinin və konkret dövrün diktə etdiklərindən azad deyilik".[2] Deməli, reallıqda tarixi yaddaş konkret sərhədlərə malikdir. Bu sərhədlər fərdi şüurun imkanları, mövcud mədəniyyət sistemi, xalqın mental xüsusiyyətləri və dəyərlər sisteminin özəllikləri ilə müəyyənləşir. Tarixi yaddaşla mədəniyyət arasındakı əlaqələrə də bu müstəvidə baxılmalıdır. Fərdin yaddaşı ilə mədəniyyəti və kollektiv səviyyədə sosial yaddaş ilə cəmiyyət olaraq mədəniyyət arasındakı əlaqə kanalları yuxarıda qeyd olunan şərtlər daxilində formalaşır. Burada dilin xüsusi rol oynadığını vurğulamalıyıq. Çünki dil, ümumiyyətlə, mədəniyyətdə kommunikasiya vasitəsidir. Qədim zamanlardan bu günə qədər həmin kontekst dəyişməyib. Şüurun, mentalitetin və bütövlükdə dəyərlər sisteminin konkret zaman-məkan çərçivəsində aktuallaşması dil vasitəsi ilə olur. Üstəlik, dil həmin faktorlar arasında əlaqələrin formalaşmasının əsas kanalıdır. Təsadüfi deyil ki, alman alimi Vilhelm Humboldt yalnız dildə bütövlükdə milli xarakterin ifadə olunduğu haqqında yazırdı.[2] Başqa bir yerdə isə o vurğulayırdı: "...dilin özünəməxsusluğu millətin mahiyyətinə təsir edir"[3]. Milli xarakter özlüyündə toplumun bütün sosial-psixoloji özəlliklərinin qarşılıqlı əlaqəsi nəticəsində formalaşır. Burada mədəniyyətlə tarixi yaddaşın sintez halında rolunu anlamaq

[2] Егоров В.К. *Историческая память: преемственность и трансформации.* "Круглый стол"/Социологические исследования, 2002, № 8, с.

[2] Humboldt V. *On Language, On the Diversity of Human Language Construction and its Influence on the Mental Development of the Human Species*. Edited by Michael Losonsky, CUP 1999, pp. 25-64.

[3] Гумбольт В. *Язык и философия культуры*. М: Прогресс, 1985, с. 370

gərəkdir. Deməli, dil bu mənada həm həmin sahələr arasında əlaqələndirici rolunu oynamalıdır, həm də o proseslərin yekunu olmalıdır. Şübhəsiz ki, həmin keyfiyyətdə dil kollektiv səviyyədə kommunikasiyanın əsas təşkiledicisinə çevrilməlidir.

Beləliklə, dil tarixi yaddaş və mədəniyyət elementləri haqqında informasiyanın daşıyıcısı, onlar arasında əlaqələrin təşkiledicisi və qarşılıqlı təsirdə inkişaflarının istiqamətvericisidir. Konkret desək, mədəniyyətin tarixi təkamülü ilə tarixi yaddaşın dinamikası qarşılıqlı surətdə bir-birindən asılıdır. Dil bu sferalar arasında kommunikasiyanın əsas təşkiledicisi və daşıyıcısı olduğuna görə, dövrün digər kommunikasiya vasitələri ilə bir yerdə onların vəhdətinin məzmununu formalaşdırmaqda həlledici rol oynayır. Kanadalı sosioloq M.Maklüyen kommunikasiya vasitələrinin mədəniyyətin tarixi növünün formalaşdırmasındakı rolunu araşdırıb. Onun mövqeyinə görə, hər bir tarixi mərhələdə mədəniyyət sisteminin necəliyi ilk olaraq kommunikasiya növündən asılıdır. Həmin əsasda o, bütövlükdə mədəniyyəti üç növə ayırır – şifahi, yazılı və elektron mədəniyyət. Bu bölgüdə M.Maklüyenə məxsus olan termin "elektron mədəniyyət"dir. Lakin elə bu məqam da müəllifə həmin problemlə bağlı orijinal ideyalar ifadə etməyə imkan verir.[1] Kanadalı sosioloqun fikrinə görə, elektron mədəniyyət mərhələsinin əsas xüsusiyyəti "...bəşəriyyətin hazırda "qlobal kənd"də mövcud olması"ndan ("the human family now exists under conditions of a "global village") ibarətdir.[2] Bunun əsas səbəbi isə XX əsrdə kommunikasiya vasitələrinin yeniləşməsidir. İNTERNET-in və elektron KİV-in inkişafı birbaşa sosial-mədəni mühitin keyfiyyətcə dəyişməsinə səbəb olur. Həmin bağlılıqda insanın şəxs kimi ciddi dəyişikliklərə uğraması baş verir. Bu, sistem xarakterli prosesdir və şüuru, mənəviyyatı, əxlaqı, dili, davranışı və bütövlükdə həyat tərzini yeniləşdirir. Təbii ki, tarixi yaddaş da bu prosesdən kənarda qala bilməz. Fransız tarixşünası Pyer Nora sosial-mədəni mühitin dəyişməsi ilə tarixi yaddaşın dəyişməsinə aid maraqlı fikirləri vardır.[3] Biz bu məqama bir qədər sonra qayıdacağıq, ancaq indi ümumiyyətlə, yaddaşla mədəniyyət növlərinin tarixi təkamülü arasında münasibətlərin dinamikasına zaman kontekstində nəzər salaq.

[1] McLuhan M., *The Gutenberg Galaxy: The Making of Typographic Man*. University of Toronto Press, 1962, 293 pp.
[2] McLuhan M. *The Gutenberg Galaxy: The Making of Typographic Man*. s. 31
[3] Нора П. и др. *Франция память*. СПб: Изд-во, С-Петербург.унив-та, 1999, с. 17-50.

*Beynəlxalq Metafizika Mərkəzi* *DOI 10.33864/MTFZK.*
*Metafizika jurnalı* *ISSN 2616-6879 (Print)*
*2019, cild 2, say 1, sıra 5* *ISSN 2617-751X (Online)*

## *Mədəniyyətin tarixi növləri ilə tarixi yaddaşın qarşılıqlı əlaqəsi*

Mədəniyyətin ilk tarixi növü hesab edilən şifahi mədəniyyətdə yaddaşın rolu böyük idi. Hətta tarixlə yaddaşın identikliyi mövcuddur. Bu barədə fransız alim Pyer Nora geniş analiz verib.[1] Tarix yaddaşdan kənarda mövcud olmur. Bu eynilik həmin dövrün mədəniyyət sisteminin məzmununa ciddi təsir göstərir. Tarixlə keçmiş eyniləşmiş olur. Biliklər nəsillərdən nəsillərə hazır informasiyalar kimi dəyişmədən ötürülür. Bu mənada tarix daim keçmişə qayıdır və onda tamamlanır. Uyğun olaraq tarixi yaddaşın mövcud olma və yeniləşmə mexanizmi formalaşır. Burada xatırlama əhəmiyyətli rol oynayır və tarixi yaddaşla şifahi mədəniyyəti birləşdirən başlıca kanal funksiyasını yerinə yetirir. Çünki xatırlama prosesində keçmiş hər şeydən əvvəl dəyişməz formada sosial-mədəni dəyərləri ilə aktuallaşır. Bununla şifahi mədəniyyət tipində xatırlama ikili funksiyanı yerinə yetirmiş olur – birincisi, yaddaşı möhkəmləndirir, onu formalaşdırır, ikincisi, dövrün mədəniyyət elementlərini təqdim edir. Şifahi mədəniyyətin bütün elementlərində – nağıllarda, mərasimlərdə, dastanlarda, folklorun komponentlərində bunu görmək mümkündür. Onu deyək ki, şifahi mədəniyyət növündə xatırlama eyni zamanda şüuri hadisə və dil prosesidir. Keçmişi xatırlama özünə qapanma halında xəyali hadisə deyil, həmişə dillə ifadəsi olan idraki aktdır. Ünsiyyət vasitəsi ilə xatırlama predmeti ictimailəşir və bu keyfiyyətdə tarixi faktora çevrilir. Yaddaşla tarixin bu cür qovuşması və ya vəhdəti konkret mərhələdə tarixi yaddaşla mədəniyyət növünün qarşılıqlı əlaqəsi dinamikasını təşkil edir. Tarixi yaddaşla mədəniyyətin bu cür qarşılıqlı əlaqəsi sonrakı mərhələlərin hər birində özünə yer tutur. Yəni yaddaşın mədəniyyətlə sıx əlaqəsi cəmiyyətin təkamülünün bütün dövrlərində özünü göstərir. Lakin burada tarix-yaddaş eyniliyindən danışmaq mümkün deyil. Çünki cəmiyyətin təkamülünün elə həddi meydana gəlir ki, tarix özünü yaddaşdan "ayırır". Bu mərhələ əsasən mədəniyyətin yazılı növündə baş verir. Yazılı mədəniyyətə keçid tarixin özünüdərkində həlledici rol oynayır. Hətta Pyer Noraya görə, tarixin özünüdərki yaddaşın inkarı deməkdir. O mənada ki, artıq qədim dövrlərdə (şifahi mədəniyyət mərhələsində) mövcud olan yaddaş=tarix nisbəti aradan qalxır. Obrazlı deyilsə, "tarixin sürətlənməsi" proseslri yaddaşın dəyişməz çərçivələ-

[1] Нора П., и др. *Франция память...*, с. 17-50.

rindən kənara çıxararaq idraki aspektdə tamamilə yeni situasiya yaradır. Yaddaş tarixin yalnız müəyyən "məkanları"nda özünə yer tapır. Burada tarixi proseslərin fasiləsizliyini təmin etmək üçün yeni mexanizmlər meydana gətirilməlidir. İlk olaraq dərketmə prosesinin keçmişə münasibəti dəyişməlidir. Artıq tarixi yaddaş deyil, şüur yaradır. Keçmişə şüuri (daha dəqiqi məntiqi) münasibət yaddaşa aid olanlardan seçim etmək mexanizmini aktuallaşdırır. Subyektin məqsədlərinə uyğun gələn informasiyalara üstünlük verilir və o əsasda "tarixin bütöv mənzərəsi" yazıda yaradılır. M.Maklüyen hesab edir ki, hətta əlifba bu prosesə təsir edir. Yəni əlifbanın abstarktlaşdırma üsuluna uyğun olan insan tipi formalaşır. Hərflərin rəmzlər olaraq necə formalaşdırılması konkret təfəkkür tipi əmələ gətirir. Bunlar bütövlükdə təhsilin məzmununa təsir edir və insanın sosial-psixoloji özəlliklərini formalaşdırır. Nəticədə keçmişə ideal yanaşma edən subyekt hansı məqamları lazım bilirsə, onu tarixi fakt kimi təqdim edir.[1] Beləliklə, yazılı mədəniyyət tarixi "sürətləndirir" və yaddaşla tarix arasında yeni münasibətlərin əsasını qoyur. Burada subyekt məntiqi təfəkkürlə yaddaşı tarixiləşdirir ki, meydana yeni tarix-yaddaş münasibətləri çıxır. Bizi maraqlandıra problem baxımından yazılı mədəniyyətdə informasiya vasitəsi ilə tarixi proseslərin fərqli mənalandırılmasına nail olmaq mümkün olur. Onun əlamətlərindən biri "rəsmi tarix" və "gizli tarix" anlayışlarının yaranması hesab oluna bilər. Son nəticədə bu məqam tarixi yaddaş və tarixin özü ilə müxtəlif manipulyasiyalara imkan yaradır.

Nəhayət, mədəniyyətin tarixi təkamülündə üçüncü mərhələdə - elektron mədəniyyət"də daha mürəkkəb və maraqlı situasiya meydana gəlir. Belə ki, burada şifahi və yazılı mədəniyyətin sintez halında özünü göstərməsindən əlavə yeni çalarlar yaranır. Bizi maraqlandıran həmin yeni çalarların tarixi yaddaşın sosial-mədəni mühitə təsirinin yeni məqamları ilə bağlıdır. Məsələ ondan ibarətdir ki, M.Maklüyenin də qeyd etdiyi kimi, elektron mədəniyyət informasiya üzərində tarixi nəzarət mexanizmlərinin hamısını yox edir. Cəmiyyətdə informasiyanın kommunikasiya kanalı kimi tamamilə fərqli keyfiyyətləri əmələ gəlir. İnsanın özünə, kollektivə, tarixə və yaddaşına olan münasibəti yeniləşir. Sanki subyekt əldə etdiyi informasiya sərbəstliyinin təsiri altında nəyin daha vacib olduğunu müəyyənləşdirə bilmir. Yaranmış mürəkkəb situasiyada özünü fərdi maraqları qarşısında təslim olur. Bu prosesə müxtəlif

[1] McLuhan M., *The Gutenberg Galaxy: The Making of Typographic Man.* University of Toronto Press, 1962, 293 pp.

məqsədlərlə aparılan informasiya müharibəsi təkanverici təsir göstərir. Bununla insan-etnos, insan-ailə, insan-kollektiv reallıq, insan-tarix arasında fərqli münasibətlər sistemi formalaşır. P.Draker buna "dördüncü informasiya inqilabı" adını verib.[1] Yeni mərhələdə İNTERNET vasitəsi ilə müxtəlif mənbələrdən alınan və fərqli məqsədlərlə yayılan informasiyalar insanın şüurunu manipulyasiya etməyə geniş imkanlar yaradır. Bu vəziyyət tarixiliyə münasibətə yeni özəlliklər gətirir. Tarixi yaddaşın bu situasiyada klassik formada mövcudluğu, razılaşın ki, imkansızdır. O halda insanın öz etnosuna münasibəti, hansı informasiyaların yaddaşda saxlanması, informasiyada ifadə olunan məzmuna müsbət və ya mənfi qiymət verilməsi mürəkkəb məsələyə çevrilir. Həmin kontekstdə tarixi yaddaş bütövlükdə cəmiyyət üçün yenidən aktuallıq kəsb edir.

## *Nəticə*

Bütün bunlar tarixi yaddaşla mədəniyyətin tarixi növləri arasında qarşılıqlı sıx əlaqənin mövcudluğunu təsdiq edir. Türk xalqlarının həmin aspektdə tarixi təkamülü maraq doğurur və bu günün şərtləri çərçivəsində kifayət qədər aktual görünür. Məsələ ondan ibarətdir ki, türk xalqları taleyin hökmü ilə fərqli sosial-mədəni məkanda yaşamalı olublar. Şifahi mədəniyyət dönəmində onların həyat tərzi və mənəvi-əxlaqi keyfiyyətləri bir-birinə sıx bağlı idi. Artıq yazılı mədəniyyət türkləri bir-birindən ayırdı. Onların bir qismi Asiya mədəniyyətində, digərləri ərəb-müsəlman mədəniyyətində, başqaları isə xristian mədəniyyəti çərçivəsində təşəkkül tapdı. Milli dövlətlərin yaranması və tədricən elektron mədəniyyətin meydana gəlməsi ilə türk xalqları arasındakı əlaqələr zəiflədi. Onlar fərqli geosiyasi və mədəni sistemdə mövcud oldular. Lakin məhz elektron mədəniyyəti dövründə bir sıra türk xalqları müstəqillik əldə etdikdən sonra yenidən vəhdət halına gəlmək şansı yarandı. Ancaq artıq elə mənəvi-əxlaqi, siyasi, mədəni, psixoloji məqamlar formalaşıb ki, xüsusi yanaşma olmadan türklərin birləşməsi problemlidir. Başqa sözlə, hər hansı təsadüfi üsulla inteqrasiyadan danışmaq səmərəsizdir. Elmi dillə desək, xüsusi "inteqrasiya dəhlizi" vardır ki, onun sərhədlərini müasir elmi metodlarla müəyyənləşdirmək lazımdır.[2] "İnteqra-

[1] Drucker P.F., *The Next Information Revolution*/ Forbes ASAP, August 24, 1998.
[2] Gurbanov F.M., *Türk toplulukları arasında entegrasyon oluşturma sürecinin sinerjik bir modeli* / I Türk Dünyası Sosyologlar Kurultayı. Kocaeli, 2005, 25-27 kasım. s.134-138.

siya dəhlizi" tarixi yaddaşın təkamül dinamikası sayəsində formalaşa bilər. Çünki müasir elmi izahlara görə, sistem yalnız yaddaşın əsasında əmələ gələn mayakların qoyduğu sərhəd daxilində özünütəşkil edə bilir. Lakin müasir dövr üçün prinsipial əhəmiyyət kəsb edən məqam tarixi yaddaşın saxlanması və kollektivdə aktuallaşdırılmasının elmi üsullarını tapmaqdan ibarətdir. Bunun üçün hər bir etnosun tarixi dərindən öyrənilməli, onun etno-psixoloji özəllikləri müəyyənləşməlidir. Müasir elektron mədəniyyət dövrünün xaotik informasiya axınının sistemli və məntiqi dünyagörüşünün yaradılmasına xidmət etməsi məsələsi kifayət qədər mürəkkəb prosesdir. Rusiya alimi Kara-Murzanın yazdığı kimi, müasir dövrdə şüuru manipulyasiya etmək geniş yayılıb. Yəni xüsusi "informasiya moda"ları vasitəsi ilə təsir edərək fərdi arzu etdikləri "informasiya burulğanına" salmağa çalışırlar. Bu sırada insanı öz tarixi yaddaşından uzaqlaşdırmaq cəhdləri xüsusi yer tutur. Belə çıxır ki, tarixi yaddaşı kollektiv reallıq səviyyəsində aktuallaşdırmaq üçün sistemli şəkildə fəaliyyət göstərilməlidir. Burada təhsil öncül yer tutur. Türk xalqlarının təhsil sistemi arasında sıx bağlılıq yaratmaq, bilikləri ortaq tarixi yaddaşı bərpa etmək stratejisi əsasında çatdırmaq həyati önəm kəsb edir. Bu istiqamətdə türk dövlətlərinin ortaq proqram reallaşdırması yalnız türk etnosunun deyil, bəşəriyyətin yararına olardı.

## ***Ədəbiyyat***

1. Drucker P.F., *The Next Information Revolution*/ Forbes ASAP, August 24, 1998.
2. Fransiya pamyat., P.Nora, M.Ozuf, J.de Pyüimej, M.Vinok. SPb: İzd-vo S.-Peterb.un-ta, 1999.
3. Gurbanov F.M., 2005 *Türk toplulukları arasında entegrasyon oluşturma sürecinin sinerjik bir modeli* / I Türk Dünyası Sosyologlar Kurultayı. Kocaeli, Türkiye, 2005, 25-27 kasım.
4. Hatton P. H., *History as an Art of memory.* University Press of New England/ Hanover and London, 1993.
5. Humboldt V., *On Language, On the Diversity of Human Language Construction and its Influence on the Mental Development of the Human Species.* Edited by Michael Losonsky, CUP 1999.
6. Humboldt V., *Yazık i filosofiya kulturı*. M: Progress, 1985.
7. McLuhan M., *The Gutenberg Galaxy: The Making of Typographic Man.* University of Toronto Press, 1962.
8. Yeqorov V.K., *İstoriçeskaya pamyat: preemstvennost i transformasii "kuqlıy stol"*/ Sosioloqiçeskiye issledovaniya, 2002, № 8.

*DOI 10.33864/MTFZK.*
*ISSN 2616-6879 (Print)*
*ISSN 2617-751X (Online)*

**Yegana Rasulova**

## *The Historical Memory in the Dynamics of the Evolution of the Culture*

*(abstract)*

*The article shows that the life style is the source of collective memory, the culture of thinking influences its content and dynamics, culture, but the language is the carrier of historical memory. On the basis of this context, historical memory phenomenon as a result of collective communication is closely related to the culture. Our analysis shows that relations should be deepened among the Turkic peoples in the modern history. Therefore, the combination of the culture, history and language fields can be possible on the basis of recovery of memory. Here we are, since ancient times first of all considering "revitalization" of the common and emerging characters for Turkic peoples.*

*First, as the first type of culture, in an oral culture, historical memory is formed by means of remind and tell. This kind of memory has got more stable content. Such memory is more static.*

*Second, the access in writing culture speeded up the actual role of historical memory. Information began spreading away by the symbols lasted for a long time (alphabet). MMakluyen writes that this process also influenced the human type. Where are the Turkic peoples in this process?*

*Third, in the modern electronic culture (M.Makluyen's sense) social function of historical memory plays new different role. Here, the different lines of contacts appear between dynamics of evolution and expression by language. Spreading up the information via the Internet throws back the written memory.*

*Thus, our main hypothesis: the formation of a common language and culture of the Turkic communities plays great strategic importance.*

***Keywords:*** *Historical memory, culture, oral culture, written culture, electronic culture, evolution, people*

***Др. Егана Расулова***

## *Историческая память в динамике эволюции культуры*

*(резюме)*

*В статье показано, что стиль жизни является источником коллективной памяти, культура мышления влияет на его содержание и динамику, а*

*культура - носитель исторической памяти. Исходя из этого контекста, феномен исторической памяти как результат коллективного общения тесно связан с культурой. Наш анализ показывает, что в современной истории отношения между тюркскими народами должны углубляться. Исходя из этого тезиса мы заключили: сочетание культуры, истории и языковых полей может быть возможным на основе восстановления памяти. Здесь мы, с древних времен, в первую очередь рассматриваем «оживление» общих и зарождающихся персонажей тюркских народов.*

*Во-первых, как первый тип культуры, в устной культуре историческая память формируется посредством напоминания и рассказа. Этот вид памяти имеет более стабильный контент. Такая память более статична.*

*Во-вторых, доступ к письменной культуре ускорил фактическую роль исторической памяти. Информация начала распространяться по символам, долго держалась (алфавит). М. М. Маклюэн пишет, что этот процесс также повлиял на человеческий тип. Где тюркские народы в этом процессе?*

*В-третьих, в современной электронной культуре (в смысле М. Маклюэна) социальная функция исторической памяти играет новую, другую роль. Здесь появляются разные линии контактов между динамикой эволюции и выражением языком. Распространение информации через Интернет отводит на второй план сохранение информации в письменной форме. Таким образом, наша основная гипотеза: формирование общего языка и культуры тюркских общин играет большое стратегическое значение.*

***Ключевые слова**: историческая память, культура, устная культура, письменная культура, электронная культура, эволюция, народ*

*Məqalə redaksiya daxil olmuşdur: 14. 02. 2019*
*Təkrar işləməyə göndərilmişdir: 21. 02. 2019*
*Çapa qəbul edilmişdir: 01. 03. 2019*